10 sentyabr 2013-cü il tarixində Ağdaş rayonu İcra Başçısının Müavini cənab Musayev və BMT-nin Uşaqlara Yarım Fondu Təşkilatının (UNISEF) Azərbaycan üzrə təmsilçisi cənab Hevardın iştirakı ilə Yaponiya hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində aşağıdakı qrant müqaviləsinin imzalanma mərasimi keçirilmişdi.

**Ağdaş şəhərində məktəbin gigiyenik şəraitinin yaxşılaşdırılması**





Layihənin əsas məqsədi Ağdaş şəhərinin məktəblərində gigeyinik vəziyyəti yaxşılaşdırmaq üçün yeni tualet və kanalizasiya qovşaqlarının tikintisidir. Layihənin ümumi məbləği 121,950 ABŞ dolları təşkil edir. Bu layihə çərçivəsində UNİCEF gigiyenik təhsillə bağlı məlumat kitabçaları və təlim bacarıqlarını təmin edəcəkdir. Sözügedən layihə M.İsayev adına məktəbdə və Ağdaş şəhəri №3 məktəblərində həyata keçiriləcək.

Səfirlikdə keçirilmiş imzalama mərasimi